# QƏHRƏMAN ATALARIN LAYİQLİ ÖVLADLARI

Valideynlər hər zaman öz canından çox sevdiyi övladlarının xoşbəxtliyini görmək istəyirlər və bunun üçün bütün həyatlarını sərf edirlər. Hər uşaq valideyninin əməyinin qarşılığını layiqincə, artıqlaması ilə vermir. Ancaq öz valideynlərinə, ailəsinə, vətəninə layiq şəkildə yetişib onların ümidini doğruldan övladlar da çoxdur. Xüsusilə də hər zaman ailələri üçün əziyyət çəksələr də söhbət vətəndən gedəndə öz sağlığından, həyatından, ailəsindən keçən şəhidlərimizin övladlarının savadlı, bilikli, uğurlu olması, həm qəhrəman atalarının, həm də Vətənin adını daha da uca zirvələrə qaldırması son dərəcə rəğbətə və hörmətə layiqdir. İndi isə həmin layiqli övladlardan söz açacağam.



*Vətən müharibəsi şəhidi polkovnik-leytenant Mehman Qənbərov və onun oğlu Nurlan Qənbərov*

Qənbərov Nurlan Mehman oğlu 2006-cı ildə anadan olmuşdur. 2021-ci ildə Azərbaycan Uşaqlarının V Ümumrespublika Forumunda iştirak etmişdir. Eləcə də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin həyata keçirdiyi yay məktəbində də iştirak etmişdir. 2021-ci ildə 5 illik tar məktəbini bitirmişdir. Rəsm, şahmat kimi bacarıqları da vardır. 2022-ci ildə Selçuk Bayraktarın təsis etdiyi "Texnofest" yarışında "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin dəstəyi ilə şəhid övladları ilə birlikdə "Zəfər" komandasında "Robotexnika" üzrə 2-ci yer tutmuşdur.



Bu yarışda komanda şəklində göstərdikləri nailiyyətlərdən sonra 2023-cü ildə Türkiyənin İstanbul şəhərində qış kampında da iştirak etmiş və Selçuk Bayraktar tərəfindən "Baykar" şirkətində ekskursiyaya dəvət olunmuşdur. Həmçinin "Azərkosmos" ASC və "Space Camp Türkiye"nin təşkilatçılığı ilə İzmirdə keçirilən kosmosla bağlı maarifləndirici kampda da iştirak etmişdir. Eləcə də 2023-cü ildə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Energetika mühəndisliyi fakültəsinə qəbul olmuş, 2024-cü ildə SABAH qruplarına imtahanı müvəffəqiyyətlə keçərək SABAH qrupu tələbəsi olmuş, həmçinin "Texnolab"ın elektronika ilə əlaqədar 3 aylıq təlimində iştirak etmişdir.



*Vətən müharibəsi şəhidi mayor Emin Süleymanov və onun oğlu Bəhmən Süleymanzadə*

Bəhmən Süleymanzadə şəhid mayor Emin Süleymanovun oğludur. Onun atası Emin Süleymanov 21 iyul 1977-ci ildə İmişli rayonunda polis ailəsində anadan olmuşdur. 1983-1992-ci illərdə orta təhsilini rus bölməsində almış, daha sonra 1992-1995-ci illərdə Cəmşid Naxçıvanski adına hərbi liseydə təhsilini davam etdirmişdir. 1995-1999-cu illərdə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) ali təhsil alaraq artilleriyaçı ixtisasına yiyələnmişdir. 1999-cu ildə ali hərbi məktəbi bitirdikdən sonra Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissədə leytenant rütbəsi ilə hərbi xidmətə başlamışdır. İkinci Qarabağ müharibəsi zamanı Şuşa istiqamətində yerləşən Daşaltı döyüşlərində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalmışdır.

Süleymanzadə Bəhmən Emin oğlu 6 mart 2007-ci ildə anadan olmuşdur, ilk təhsilini rus bölməsi üzrə Balakən 1 saylı tam orta məktəbdə almışdır. Hərbçi ailəsində dünyaya gəldiyindən atası xidməti yerlərini dəyişdikcə təhsilini Mingəçevirdə, Göygöldə, Gəncədə və s. bölgələrimizdə davam etdirmişdir. Gəncədə oxuduğu zaman atası onu cüdo idman növü üzrə məşqlərə yazdırmışdır. Qısa müddətdə müxtəlif zamanlarda birinci və ikinci yer tutaraq medallara layiq görülmüşdür. Çox təəssüf ki, atası şəhid olduqdan sonra Bəhmənin həyatı tamam dəyişmiş və o, bu idman növü üzrə məşqləri davam etdirə bilməmişdir. Onun atasının arzusu idi ki, nailiyyətləri daha da çox olsun. O, universitetə hazırlaşdığı üçün idmana davam edə bilməmişdir. Bundan başqa müxtəlif təlimlərdə iştirak etmişdir və sertifikatları vardır. 2024-cü ildə məqsədinə çataraq ADA Universitetinə qəbul olmuşdur. Onun məqsədləri çoxdur və buna çatmaq üçün çalışır. Arzusu odur ki, hər bir yeniyetmə öz məqsədlərində israrlı olub buna nail olmaq üçün həvəsdən düşmədən irəliləsin.



"Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi və Avstriya Azərbaycanlıları Cəmiyyətinin təşkilatçılığı, "Azərlotereya" ASC, "Azərbaycan Hava Yolları" (AZAL) QSC və Azərbaycan Diasporuna Dəstək Fondunun tərəfdaşlığı ilə 28 iyul - 2 avqust 2025-ci il tarixlərində Avstriyanın Zalsburq və Vyana şəhərlərində "Əmanətə sədaqət" Yay Düşərgəsi keçirilmişdir.

Düşərgədə yerli və xarici universitetlərdə təhsil alan və yüksək akademik göstəricilərə malik 22 şəhid övladı iştirak etmişdir. Onların arasında Bəhmən də var idi. Avstriyanın Zalsburq şəhərində olanda Bəhmən atasının əziz xatirəsinə həsr olunan Şəhanə Müşfiqin müəllifi olduğu "Qutsal yolçu" adlı kitabını orada yerləşən Azərbaycan Evinə hədiyyə etmişdir.



Bəhmən yay düşərgəsində qəhrəman şəhidlərimizin tələbə övladları ilə birgə karyera planlaması, şəxsi inkişaf, liderlik və motivasiya mövzularında peşəkar təlimlərə qatılmış, Zalsburq Universitetində təcrübə mübadiləsi proqramında iştirak etmiş, həmçinin Avstriya mədəniyyətini yaxından tanıyaraq tarixi bölgələrə maarifləndirici səfərlər etmişdir.

O və bacısı Emilya gördükləri işlərlə qəhrəman ataları şəhid mayor Emin Süleymanova və vətənimizə layiq olmağa çalışırlar. Bəhmən bütün istedadlı, fəal və vətənpərvər gənclərə uğurlar arzu edir.




*Vətən müharibəsi şəhidi Azərbaycan Silahlı Qüvvələrinin MAXE hərbi qulluqçusu Taleh İsmayılov və onun oğlu Murad İsmayılov*

İsmayılov Murad Taleh oğlu 8 mart 2010-cu ildə Lənkəran rayonunun Boladı kəndində ziyalı ailəsində dünyaya göz açmışdır.



*(Davamı 16-cı səhifədə)*

KREDO
№ 25 (1281) 19 sentyabr 2025-ci il

# QƏHRƏMAN ATALARIN LAYİQLİ ÖVLADLARI

*(Əvvəli 12-ci səhifədə)*

Atası Azərbaycan Silahlı Qüvvələrinin MAXE hərbi qulluqçusu, Vətən müharibəsi şəhidi Taleh Səndəl oğlu İsmayılov (26 noyabr 1986-cı il, Lənkəran rayonu, Boladı kəndi - 4 noyabr 2020-ci il, Şuşa), anası Gülay İsmayılova isə ibtidai sinif müəllimidir. Murad 2016-cı ildə Lənkəran rayonunun Boladı kəndi N.Axundov adına 1 saylı məktəbin 1-ci sinfinə qəbul olmuşdur. 2020-ci ildə Murad imtahan verərək Lənkəran şəhər S.Kazımbəyov adına 6 saylı tam orta məktəb-liseyə, daha sonra 2022-ci ildə imtahan verərək Milli Qəhrəman M.İbrahimov adına Biləsuvar Təhsil Kompleksinə daxil olmuşdur. Bir il orada təhsilini davam etdirdikdən sonra 2023-cü ildə Mərkəzi imtahanla liseylərə qəbul imtahanında iştirak etmiş və 8-ci sinifi yenidən Lənkəran şəhər S.Kazımbəyov adına 6 nömrəli texniki riyaziyyat təmayüllü liseyə qəbul olmuşdur. Hal-hazırda Murad təhsilini orada davam etdirərək 9-cu sinfi başa vurmuşdur. Murad hər zaman dünyagörüşü, rəftarı ilə yaşıdlarından seçilmişdir. 1-ci sinifdən müxtəlif kursların sınaqlarında, müsabiqələrdə, olimpiadalarda iştirak etmiş və uğur əldə edərək diplom və sertifikatlara layiq görülmüşdür. Dövlət İmtahan Mərkəzinin keçirdiyi 9-cu siniflərin buraxılış imtahanında Murad yüksək bal (230 bal) toplamış, ümumi orta təhsilini əla qiymətlərlə bitirdiyi üçün Fərqlənmə Atestatına layiq görülmüşdür.



Murad DİM imtahanında yüksək nəticə əldə etdiyinə görə "YAŞAT" Fondunun təşkilatçılığı ilə Birləşmiş Krallığın paytaxtı Londonda üçüncü YAŞAT yay məktəbində iştirak edəcək 10 uşaqdan biri olaraq iştirak hüququ qazanmışdır. Murad 2025-ci ilin 24-27 mart tarixlərində "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin təşkilatçılığı ilə Ankara şəhərində keçirilən texno-düşərgəsində iştirak etmişdir.

Muradın ailədə özündən başqa əkiz qardaşları da vardır. Yaqub və Yusif İsmayılov da hər zaman dərslərində diqqətli, intizamlı və uğurlar əldə edən şagirdlərdir. Hər üç qardaş məsuliyyətlə çalışır, çünki onlar uşaqların gələcəyi, Vətənin bütövlüyü üçün canını sipər edərək Vətəni qoruyan, 44 günlük Vətən müharibəsində 39 günü qəhrəmancasına döyüşən və 04.11.2020-ci il tarixdə Şuşa uğrunda gedən döyüşlərdə şəhadətə ucalan Qəhrəmanın övladlarıdırlar. Bu qardaşların bir arzusu vardır: dərslərini əla qiymətlərlə oxumaq, ölkəmizi hər zaman hər yerdə layiqincə təmsil etmək, dövlətə, dövlətçiliyə sadiq, ali təhsilli bir vətəndaş kimi dövlətə xidmət etmək. Ataları ilə son telefon danışığı zamanı onlar atalarına "Biz sənə güvənirik, torpaqlarımızı azad edərsən, qalib olarsınız" demiş, ataları da övladlarına "Mən sizə güvənirəm, hər zaman dərslərinizdə birinci olarsınız", - deyə bildirmişdir.



Ataları şəhid Taleh İsmayılov sözünu tutdu, qanı, canı bahasına Vətən torpağını azad etdi. İndi isə qalib ölkənin vətəndaşları olaraq üç qardaş da əzmlə çalışırlar.

**_SEVİNDİK NƏSİBOĞLU_**
**_şair-publisist, AJB üzvü_**